

"Qrip virusuna yoluxub, sağaldıqdan sonra diş fırçaları mütləq dəyişdirilməlidir". Xəbərçiaz bildirirr ki, bu barədə türkiyəli stomatoloqlar əhaliyə xəbərdarlıq edib. Məlumata görə, qrip zamanı bakteriyalar diş fırçasına yığılır və orada yaşamağa davam edir: "Diş fırçası üzərində çoxlu bakteriyalar toplaşır. Bakteriyalardan fərqli olaraq viruslar vücudda daha uzun müddət canlı qala bilirlər. Buna görə də insanın xəstəliyə yenidən yoluxması mümkündür. Bu səbəbdən xəstəlik zamanı istifadə edilən diş fırçası xəstəlik bitdikdən sonra dəyişdirilməlidir. Bu üsul vasitəsilə virusların qarşısını almaq mümkündür".